### Fərman Quliyev – 85

# Subtropik bitkilər sahəsində dünya şöhrətli alim

***Azərbaycanın elmi ictimaiyyəti və aqrar sahə üzrə qurumların kollektivləri subtropik bitkilərin öyrənilməsi və becərilməsi sahəsində görkəmli alim, Lənkəran Regional Elmi Mərkəzinin rəhbəri, professor Fərman Quliyevin anadan olmasının 85 illiyini qədirbilənliklə qeyd edir. Yubiliyar soydaşımız aqrar elm, xüsusən subtropik bitkilərin becərilmə texnologiyalarının və arealının genişləndirilməsinin elmi və praktiki əsaslarının tədqiqi və alınan nəticələrin tətbiqi sahəsində keçmiş SSRİ-də, yaxın-uzaq xaricdə, eləcə də müstəqil Azərbaycanda aparıcı alimlərdən biri kimi tanınmışdır.***



Fərman Ağadədə oğlu Quliyev 19 may 1937-ci ildə Lənkəran rayonunun Sütəmurdov kəndində anadan olmuşdur. O, 1950-ci ildə həmin kənddə yeddillik məktəbi, 1954-cü ildə Lənkəran Subtropik Bitkilər Texnikumunu, 1959-cu ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsini əla qiymətlərlə bitirmişdir. Gənc aqronom 1959-1961-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Bağçılıq və Subtropik Bitkilər İnstitutunun Lənkəran filialında fəaliyyətə başlamışdır.

1961-1962-ci illərdə Ümumittifaq Çay və Subtropik Bitkilər Elmi-Tədqiqat İnstitutunda (Gürcüstan SSR, Maxaradze şəhəri) kiçik elmi işçi vəzifəsində çalışmış Fərman Quliyev 1962-1965-ci illərdə həmin institutun aspiranturasında elmi axtarışlarını davam etdirmiş və 1965-ci ildə Gürcüstan Subtropik Təsərrüfatı İnstitutunda (Suxumi şəhəri) dissertasiya müdafiə edərək kənd təsərrüfatı elmləri namizədi elmi dərəcəsi almışdır. Həmyerlimiz 1965-1967-ci illərdə Soçi Subtropik və Cənub Meyvə Bitkiləri Təcrübə Stansiyasında baş elmi işçi kimi çalışmışdır. Fərman Quliyev 1967-ci ildə Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin dəvəti ilə ET Bağçılıq və Subtropik Bitkilər İnstitutunun Lənkəran filialında aqrokimya və bitki fiziologiyası laboratoriyasının müdiri vəzifəsinə təyin olunmuş, 1968-1984-cü illərdə həmin filialın direktoru vəzifəsində işləmişdir.

Fərman Quliyev 1984-cü il Azərbaycan Kənd Təsərrüfatı İnstitututunun (Azərbaycan Kənd Təsərrüfatı Akademiyası) meyvəçilik və subtropik bitkilər kafedrasının dosenti seçilərək 1988-ci ilədək həmin kafedraya rəhbərlik etmiş, 1988-2002-ci illərdə isə Azərbaycan EA Genetika və Seleksiya İnstitutunda subtropik bitkilərin genetikası və seleksiyası şöbəsinin müdiri olmuşdur. Tanınmış alim həmçinin 1991-1995-ci illər ərzində Azərbaycan Respublikasının Prezidenti Aparatında Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin böyük məsləhətçisi, 1995-1996-cı illərdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Beynəlxalq elmi-texniki əməkdaşlıq və informasiya idarəsinin rəisi vəzifələrində çalışmışdır.

Subtropik bitkilər sahəsində nüfuzlu alim Fərman Quliyev 1988-ci ildə Gürcüstan Subtropik Təsərrüfatı İnstititunda “Azərbaycanda çay bitkisinin intensiv texnologiyasının elmi əsasları” mövzusunda dissertasiya müdafiə edərək kənd təsərrüfatı elmləri doktoru dərəcəsi, 1993-cü ildə professor elmi adı almışdır.

Professor Fərman Quliyev ilk dəfə olaraq Azərbaycanın özünəməxsus torpaq iqlim şəraitində limon, naringi, portağal, qreypfrut, kinkan, şeddok və s. sitrus bitkilərinin, yeni subtropik meyvə sayılan feyxoanın və kivinin yetişdirilməsinin elmi-praktik əsaslarını işləyib hazırlamışdır. Tanınmış alim zeytun, əncir, nəcib dəfnə, püstə, badam, bambuk, raziyanə, zirə və s. meyvə, texniki və dərman bitkiləri üzərində də geniş elmi-tədqiqat işləri aparmış, onların iqtisadi faydalılığını müəyyən edərək, təsərrüfata tətbiqinə nail olmuşdur.

Elmi fəaliyyəti xaricdə də yüksək dəyərləndirilən Fərman Quliyev tədqiqat işlərini 1995-1998-ci illərdə İran İslam Respublikasında da davam etdirmişdir. Onun elmi rəhbərliyi altında Ərdəbil Universiteti üçün 10 hektar sahədə kənd təsərrüfatı elmi-tədqiqat mərkəzi yaradılmış, buranın bazasında 150 növdən çox dərman və meyvə bitkilərinin genefond bağı salınmışdır.

Fərman Quliyev feyxoanın becərilməsinə dair ilk aqronomik qaydaların tərtibatçısı olmuşdur. O, respublikada və sabiq SSRİ məkanında feyxoanın ilk seleksiya sortlarının (“Xəzər”, “Lənkəran”, “Astara” və s.) müəlliflərdən biridir. Fərman müəllimin təşəbbüsü və gərgin əməyi sayəsində 1983-cü ilin oktyabr ayında sabiq SSRİ məkanında ilk dəfə olaraq Lənkəran şəhərində feyxoa bitkisinə dair ümumittifaq elmi-praktik müşavirə keçirilmişdir.

Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış çoxsaylı dövlət proqramlarına uyğun olaraq bölgədə çayçılığın, subtropik bitkiçiliyin, bəzək bağçılığının və tərəvəzçiliyin inkişaf etdirilməsi ilə əlaqədar Lənkəran Dövlət Universitetində “Professor Fərman Quliyev ixtisas məktəbi” fəaliyyət göstərmişdir. Bununla əlaqədar olaraq, tanınmış alim Lənkəran rayonunun Haftonu qəsəbəsində 30 hektar sahədə nümunəvi-təcrübi çay, sitrus, subtropik meyvə və bəzək bağçılığı üzrə plantasiyalar salmışdır.

Uzun illərin əmək fəaliyyəti dövründə SSRİ Ali Attestasiya Komissiyasının, SSRİ Kənd Təsərrüfatı Nazirliyi Elmi-Texniki Şurasının, Ümumittifaq Çay və Subtropik Bitkilər Elm-İstehsalat Birliyinin “Subtropik Bitkilər” jurnalı redaksiya heyətinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Elmi-Texniki Şurasının, Azərbaycan Ali Attestasiya Komissiyasının Ekspert Şurasının, AR KTN Elmi-Tədqiqat Əkinçilik İnstitutunda dissertasiya müdafiəsi şurasının üzvü, Qafqaz və Azərbaycan Çay assosiasiyalarının rəhbəri, İran İslam Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, İİR Təbii Ehtiyatlar Nazirliyinin və Ərdəbil Universitetinin elmi-tədqiqat işləri üzrə müşaviri olmuşdur.

Aqrar sahə üzrə görkəmli alim Fərman Quliyev AMEA-nın Lənkəran Regional Elmi Mərkəzində (LREM) böyük elmi-təşkilati işlər həyata keçirmişdir. LREM 2005-ci ildə yaradılmasına baxmayaraq, uzun müddət çox zəif fəaliyyət göstərmişdir. 2015-ci ildən professor Fərman Quliyevin rəhbərliyi ilə mərkəzin fəaliyyətində ciddi dönüş yaranmışdır. Alim qısa müddət ərzində LREM-in elmi və tətbiq işlərini yüksək səviyyədə təşkil edə bilmiş, eyni zamanda elmi fəaliyyətini də dayandırmamışdır. O, “Xəzər”, “Lənkəran”, “Məhsuldar” feyxoa sortlarının həmmüəllifi olmaqla yanaşı, çay bitkisinin becərilməsinə dair 5 səmərəli təklifin vəsiqəsini də almışdır.

Yenilikçi alim Fərman Quliyev 2019-cu ildə rayonlaşdırılmış 4 çay sortunun (“Fərmançay”, “Lənkəran”, “Xəzər”, “Fərmançay Çəhrayı”) müəllifidir. Bu sortlar zoğvermə intensivliyinə, zoğların keyfiyyət göstəricilərinə, quru çay məhsuluna görə standart sortları xeyli üstələyir. Alimin gərgin və məqsədyönlü fəaliyyətinin nəticəsi olan “Lənkəran meyeri” limon və “Karlik tezyetişən” naringi sortları, tropik-subtropik quayava bitkisinin 2 sortu dövlət sort sınağına təqdim olunmuşdur. Professor Fərman Quliyevin qısa zaman kəsiyində kiçik bir təcrübə təsərrüfatında yaratdığı genefond bağı, burada yetişdirilən nadir və nəsli kəsilməkdə olan bitki növləri hamını heyran qoyur.

Tanınmış alimin çay, limon, narıngi, portağal, qreypfrut, feyxoa, zeytun, kivi, innab, əncir, badam, nəcib dəfnə və s. subtropik, bir sıra digər meyvə, eləcə də texniki və dərman bitkiləri üzərində apardığı elmi-tədqiqat işlərinin nəticələri təsərrüfatlarda geniş tətbiq edilərək, ali məktəblərin tədris proqramlarına və vəsaitlərinə daxil edilmiş, xarici dillərə tərcümə olunmuşdur.

Professor Fərman Quliyev Lənkəran Dövlət Universitetinin iqtisadiyyat və aqrotexnologiya kafedrasının müdiri vəzifəsində çalışdığı 2003-2015-ci illər arasında kollektivdə böyük hörmət və nüfuz qazanmış, burada 4 fəlsəfə doktoru hazırlamışdır. Alim nüfuzlu yerli və xarici elmi jurnallarda Azərbaycan, rus, fars, ingilis, çin, gürcü və s. dillərdə çap olunmuş 350-dan çox elmi əsərin, o cümlədən 30-dən çox kitab, monoqrafiya, metodik vəsait və tövsiyələrin, bir sıra subtropik və tropik bitkilərin açıq torpaq iqlim şəraitində yetişdirilməsinə dair aqronomik qaydaların müəllifidir.

Tanınmış alim 1980-ci ildə “Xalqlar Dostluğu” ordeni və iki dəfə “Əmək rəşadətinə görə” medalı ilə təltif olunmuş, 1982-ci ildə Azərbaycan SSR-in Əməkdar aqronomu adına layiq görülmüş, 1996-cı ildə Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü seçilmişdir.

Ömrünün müdriklik çağında da professor Fərman Quliyev məhz həyatını elmi yaradıcılığa sərf eləmiş, elmi inkişaf etdirməklə ondan bəhrələnmiş bir şəxsiyyət olmaqla, bu gün də yorulmadan çalışır, müvafiq elmi problemlərin həllində fəal iştirak edir.

Sonda tanınmış alim, professor Fərman Quliyevi anadan olmasının 85, elmi-pedaqoji fəaliyyətinin 60 illiyi münasibətilə bir daha səmimi qəlbdən təbrik edir, ona cansağlığı, daha uzun və bərəkətli ömür, bundan sonrakı fəaliyyətlərində müvəffəqiyyətlər arzulayırıq!

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti, akademik***